

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 126 (23.037)

10 iyul 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammann ölkəmizə səfərindən məmnunluğunu bildirib.

Ölkələrimiz arasında siyasi və iqtisadi sahədə əlaqələrin çox uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu deyib. Prezident İlham Əliyev müxtəlif sahələrdə biznes əlaqələrinin genişləndirilməsi üçün də yaxşı imkanların olduğunu vurğulayıb və bu baxımdan ayrı-ayrı infrastruktur layihələrinin həyata keçirilməsi, qarşılıqlı investisiyaların qoyulması sahəsində yaxşı təcrübənin olduğunu deyib.

Görüşdə ölkələrimiz arasında ticarət, investisiya, nəqliyyat, səhiyyə, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## M.A.Qəribovun Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Abdulla oğlu Qəribov Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 iyul 2018-ci il*

## Növbəti əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən Kəngərli rayonunda təşkil olunan növbəti əmək yarmarkasını giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov açaraq əhalinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.

Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıraddin Mehbalıyev belə tədbirlərin rayonda fəaliyyət göstərən qurumların ixtisaslı kadrlarla təminatında mühüm rolu olduğunu deyib.

Vurğulanıb ki, muxtar respublikada, eləcə də Kəngərli rayonunda yeni iş yerlərinin açılması, infrastrukturun ən müasir tələblər səviyyəsində qurulması sosial rifahın təmin olunmasına müsbət təsir göstərib. Əmək potensialının keyfiyyətcə yüksəldilməsi, layiqli əməyin təminatı, iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir.

Sonra yarmarkaya gələnlər boş iş yerləri ilə tanış olublar. Yarmarkaya 7-si özəl müəssisə, 9-u isə dövlət orqanı olmaqla, ümumilikdə, 16 qurumdan 156 boş iş çıxarılıb. Boş iş yerlərindən 144-ü dövlət, 12-si isə özəl sektora aid olub. Əmək yarmarkasında 26 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.*

## Gənclər hərbi xidmətə yola salınır



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, mayor Cavid Məmmədov açıb.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov, ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Pərviz Novruzov övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Bəhruz Seyidov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu yaxınlarda Silahlı Qüvvələrimizin yaradılmasının 100-cü ildönümü münasibətilə paytaxt Bakı şəhərində keçirilən hərbi parad öz möhtəşəmliyi ilə hər birimizin qəlbini qürur hissi ilə doldurdu. Ordumuzun istifadəsinə verilmiş yeni hərbi təyinatlı texnikalar bir daha Azərbaycan Silahlı Qüvvələrinin gücünü, döyüş potensialını bütün dünyaya nümayiş etdirdi.

Qeyd olunub ki, Silahlı Qüvvələrimizin yeni texnikalarla təminatı Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Bu gün muxtar respublikamızın təhlükəsizliyini ən yüksək səviyyədə qoruyan Əlahiddə Ümumqoşun Ordu dünyanın ən müasir silah və texnikaları ilə təchiz olunub. Ötən müddət ərzində həyata keçirilən tədbirlər nəticəsində şəxsi heyətin peşəkarlığı artıb, əsgər və zabitlərin döyüş ruhu daha da yüksəlib. Bunun nəticəsidir ki, may ayında Şərur rayonunun 26 il işğal altında olan Günnüt kəndi və ətraf ərazilər azad edilib, 11 min hektar ərazi ordumuzun nəzarəti altına keçib. Cəbhədə qazandığımız bu uğur xalqımızın tezliklə işğal olunmuş digər torpaqlarımızın da düşmən tapdağından azad olacağına inamını artırıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 30 may tarixli "Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamı ilə ölkəmizdə, eləcə də muxtar respublikamızda hərbi xidmətə çağırış kampaniyalarının başlandığını bildirən xidmət rəisi Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, onların övladlarının belə bir nüfuzlu ordunun sıralarında ləyaqətlə xidmət edəcəklərinə əminliyini ifadə edib.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yola salınması mərasimləri keçirilib.

✍ **Səbuhi HƏSƏNOV**

## Bu ilin ötən dövründə muxtar respublikada 2739 daşınmaz əmlak qeydiyyata alınmışdır

Muxtar respublikada torpaqlardan təyinatı üzrə səmərəli istifadə edilməsinə dövlət nəzarətinin gücləndirilməsi 2018-ci ilin birinci yarımilində də diqqət mərkəzində saxlanılmış, mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınmasında operativlik təmin edilmişdir. Naxçıvan şəhəri və ətraf yaşayış məntəqələrində, Şərur rayonunun Düdəngə, Zeyvə, Danyeri, Tənənəm, Xələc, Ələkli, Arbatan, Cəlilkənd və Sərxanlı kəndlərində 7822 daşınmaz əmlak obyekti plana alınmışdır.

Babək rayonunun 5, Şahbuz rayonunun 5, Culfa rayonunun 4, Şərur rayonunun 8, Ordubad rayonunun 3 bələdiyyəsinin torpaqlarının qida maddələri ilə təmin olunmasına dair sənədlər hazırlanaraq müvafiq bələdiyyələrə təqdim edilmişdir. Həmçinin Culfa rayon inzibati ərazi vahidinə daxil olan Culfa və Gülüstan bələdiyyələrinin, Babək rayonunun Nehrəm, Araz, Çeşməbasar, Güznüt, Göynük, Nəhəcir, Nəzərabad, Didivar, Qahab, Naxışnərgiz, Məmmədrza Dizə, Sirab, Aşağı Buzqov, Yuxarı Buzqov, Kərimbəyli, Payız, Zeynəddin və Şıxmahmud bələdiyyələrinin xəritələrinin və müvafiq yerquruluşu sənədlərinin hazırlanması başa çatdırılmışdır. Şərur rayonunun 30 bələdiyyəsinin isə sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Həmçinin Şahbuz rayonunun 22 bələdiyyəsinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritələri hazırlanmışdır.

Cari ilin ilk altı ayı ərzində, ümumilikdə, muxtar respublika üzrə 2739 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Bu dövrdə muxtar respublika üzrə 45 yaşayış məntəqəsində 432 vətəndaşın müraciətinə baxılmış, komitənin göstərdiyi elektron xidmətlərdən 212 müraciət daxil olmuş və icra edilmiş, yüklülüyə dair 2029 arayış verilmişdir. Muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 350 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 404 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmış, 105 əmlak real bazar dəyərinə uyğun olaraq qiymətləndirilmiş, 778 əmlakın bazar dəyəri məlumat bankına daxil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Muxtar respublikada 2018-ci ilin ötən dövründə suvarmanı mütəşəkkil təşkil etmək məqsədilə tədbirlər görülmüş, 35 kilometr yeni suvarma boru xətti, 3 kilometr yeni içməli su xətti çəkilmiş, 12 kilometr suvarma boru xətti, 33 kilometr içməli su xətti təmir-bərpa olunmuşdur. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 410 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 22 min 400 metr paylayıcı boru xətti çəkilmişdir.*

## Meliorasiya və irriqasiya işləri davam etdirilir



Sədərək rayonunda "Dəhnə" adlanan ərazidə 8 hektar sahə, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 39 hektar sahə hamarlanaraq əkin üçün yararlı vəziyyətə gətirilmişdir. Şoranlaşmanın qarşısını almaq məqsədilə, ümumilikdə, 563 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınmışdır. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Naxçıvançay və Cəhriçayda, Qahab və Sirab selovunda, eləcə də Arpaçay vadisində selə qarşı, ümumilikdə, 24 kilometr istiqamətləndirici bənd salınmışdır. Bu dövrdə 8 kəhrizin bərpası başa çatdırılmışdır.

"Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Babək rayonunun Şəkərabad kəndində müxtəlif diametrli borularla 16,4 kilometr içməli su xətti çəkilmiş, 576 evə su verilərək sayğac quraşdırılmış, müxtəlif diametrli borularla 15,1 kilometr kanalizasiya xətti də çəkilmiş, bütün mənzillər şəbəkəyə qoşulmuşdur. "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurulması" layihəsi çərçivəsində Şahbuz şəhər çirkab sutəmizləyici qurğusunda tikinti işləri davam etdirilmişdir. Şərur rayonunun Yengicə kəndində müxtəlif diametrli borularla 29 kilometr su xətti çəkilmiş, 860 ev şəbəkəyə qoşulmuşdur. Ordubad rayonunda ümumi tutumu 18 min kubmetr olan 6 su anbarının tikintisi başa çatdırılmış, 18 subartezian quyusu qazılmışdır. Həmçinin Ordubad şəhərində müxtəlif diametrli borularla 73 kilometr içməli su xətti, 72 kilometr kanalizasiya xətti və anbarlar arasında 7 kilometr təzyiqli boru xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

***Yolumuz Kiçik Qafqazın ən uca zirvəsi olan başı buludlarla çalmalı Qapıcıq dağının ağuşunda mürgüləyən Ordubad rayonunun səfalı kəndi Tiviyədir. Maşınımız yol aldıqca seyr etdiyimiz gözəl mənzərələr – xəfif əsən küləyin mehindən dəniztək dalğalanan bərəkət ətirli zəmilər, yamyaşıl çəmənliklərə rəngarəng naxış salan çiçəklər, zümrüd rəngli, gözyaşıtək saf bulaqlar, Nuh tufanına şahidlik etmiş məğrur Gəmiqaya bu yerlərin ecazkar tablolarıdır. Gözoxşayan mənzərələrilə insanı məftun edən bu əsrarəngiz yurd yerinin füsunkar gözəlliklərini qələmə almaq üçün coşqun təbiətli şair olmaq lazımdır bəlkə də... Ağrı, Kəmki dağlarını, Haçadağı keçərək Gəmiqayada lövbər salan Nuh Peyğəmbərin mübarək addımları bərəkəti bol, bənzərsiz naz-nemətlər bəxş edib bu yurd yerinə.***



*Yeniləşən kəndlərimiz*

# Tarix və müasirliyi yaşadan ucqar dağ kəndi

## Tivi





Yol boyunca bir-birinin ardınca düzülən palıd, yulğun, əzgil, tut, cəviz, alça, gilas, yemişan, armud və adını sadalamaqla bitməyən növbənöv ağaclar, dağ yamaclarında bitən qırxbuğum, dağ zirəsi, ələyəz, əvəlik, boymadərən, bağayarpağı kimi müalicəvi əhəmiyyətə malik çoxsaylı bitkilər, nadir kollar Tivinin torpağının bar-bərəkətindən xəbər verir. Sehrinə düşdüyümüz mənzərələri ilə yanaşı, həm də kəndin zəngin keçmişindən soraq verən, əsrlərin tarixinə lövbər salan izlər də mövcuddur. Elə 1968-ci ildə kənd ətrafında qeydə alınan antik dövrə aid arxeoloji abidə – Tivi nekropolu bu yurd yerinin tarixi zənginliyindən xəbər verən faktdır, sübutdur. Bu abidə kəndin qədim və orta dövr tariximizin canlı salnaməsidir.

Kəndin toponiminə gəldikdə isə, bu haqda mənbələrdə maraqlı ehtimallar var. Qeyd olunur ki, "Tivi" sözünün mənşəyi ərəb dilində "tiv" – gözəl ətir qoxusu mənasını verib, "ətir saçan" deməkdir. Digər bir mənbədə rast gəldiyimiz məlumatda isə bu oykonim ərazidəki mineral bulaqların adı ilə bağlıdır və toponimiya "tbi", "tivi", "tüpü", "tibi", "tupu" – "bataqlıq", "göl", "su dolan yer", "su şırnağı" mənalarında işlənilir.

Bu yurd yeri, əsasən, təpə üzərində yerləşir. Kəndin hər iki tərəfindən çay axır. Mənsəbini Gəmiqaya, Qızgəlin çuxuru, Saqqarsu və Nəsirvaz dağlarından alan çayların suyundan, əsasən, suvarılmada istifadə edilir. "Böyükçay" adlanan çayın üzərində salınan yeni körpü və yenidən qurulan yol sakinlərin rahatlığını təmin edib. Rayon mərkəzi ilə kəndi iki yol birləşdirir. Bunlardan biri sovet dönəmindən qalma əyri-üyrü dolambaclarla gedən və elə o vaxtlardan da istifadəyə yarasız yoldur. Digəri isə bir neçə il bundan əvvəl dövlətimizin qayğısı sayəsində salınan strateji əhəmiyyətə malik olan Biləv-Tivi-Nürgüt-Göygöl avtomobil yoludur. Bu yolun istifadəyə verilməsi sakinlər üçün ən böyük ərməğandır.

Əsrlərə şahidlik edən qədim tikililər, evlər, məhəllələr bu kəndin canlı tarixidir. Tivi ağsaqqallarından Qurban Sultanovun sözlərinə görə, kənd, əsasən, on bir məhəllədən və yeni salınan bir neçə qoldan ibarətdir. Ən qədim məhəllə isə güman edilir ki, Dərbənd məhəlləsidir. Bu məhəllələrdən keçərkən qədim dövrlərə aid olan bişmiş kərpicdən və çay daşlarından tikilən evlər insan ruhuna xoş duyğular bəxş edir. Biranlıq düşüncələr keçmişə qanad açır. Kənddə iki böyük meydan var. Bu meydanlarda, əsasən, Tivinin özünəməxsus mərasimləri, şənlikləri keçirilir. Kənddə olan iki məsciddən biri də elə kəndin mərkəzində olan meydanda yerləşir. Digər məscid isə Bəy məhəlləsindədir.

Tivi həm də bulaqlar diyarıdır. 84 yaşlı Famil Bayramov deyir ki, burada hər kəsin bağçasında bir bulaq axır. Bütün yarğanlarda, yol kənarlarında olan bulaqlar kəndin yaşıllıqlarına həyat verir. Onlardan bir çoxu Narzan tiplidir və dəri xəstəliklərinin müalicəsində tövsiyə edilir.

Tividə xalq çalğı alətlərinə də xüsusi maraq var. Hətta burada bu alətləri hazırlayanlar da olub. Qara zurna ifaçısı 75 yaşlı Əbülfəz Abutalıbov deyir ki, nəfəsli alətlərin içərisində zurnanın xüsusi yeri var. Onun sözlərinə görə, cəviz və ərik ağaclarından hazırlanan zurna nəfəsli alətlər içərisində ən qədim olanıdır. Əbülfəz kişi onun Nuh əyyamından qaldığını söyləyir. Tufandan öncə təhlükəni bildirmək üçün bir çobanın dağ başına çıxaraq zurna çalmaqla xəbərdarlıq etməsi ilə bağlı xatırlatdığı rəvayət də maraqlıdır. Əbülfəz kişi deyir ki, "Nuh havası" deyilən hava kənddə indiyədək ifa edilir.

Adət-ənənələrin, milli-mənəvi dəyərlərin, əxlaqi-etnik düşüncələrin qorunduğu Nəbi yurdunda insanların nicat tapdığı Bibqətəl, Dağdağan, Qara daş, Palıd, Qoşa cəviz pirləri və adını sadalamadığımız onlarla belə ziyarətgah kənd adamlarının mənəvi saflığından xəbər verir. İnsanların ümid yeri olan bu pirlərlə bağlı AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli kompleks tədqiqat işləri apararaq onlar haqqında geniş məlumatlar əldə edib. Tədqiqatlar zamanı təkcə Tivi kəndində 70-ə qədər ziyarətgahın mövcud olduğu qeydə alınıb.

Dağlarının qarı qədər təmiz, bulaqlarının suyu qədər safürəkli insanların doğma yurdu olan Tivi camaatı halal çörək üçün tər axıdan, mərd, zəhmətsevər insanlardır. Otlaqlarında qoyun-quzu mələyən, münbit torpaqlarında, bərəkətli əkin sahələrində min bir nemət bitən bu yurd yerinə üz tutanları güləruz, mehriban qarşılayan qonaqpərvər kənd adamlarının əsas məşğuliyyəti təsərrüfatdır. Aranla müqayisədə havalar bir az gec isinsə də, indi bu yurd yerində təsərrüfat işlərinin qızğın vaxtıdır. Sahələrdə müşahidə etdiyimiz qələbəlik insanın ruhuna xoş təsir bağışlayır. Bir tərəfdə məhsul yığılır, başqa bir tərəfdə əkin sahələri suvarılır.

Kənddə əsas təsərrüfat sahələrindən biri arıçılıqdır. Hər il burada bol və keyfiyyətli bal istehsal edilir. 64 yaşlı Hüseynəli Quliyev uzun illərdir ki, bu sahə ilə məşğul olur. Onun qazanc yeri elə həyətinə sıra ilə düzərək yerləşdirdiyi arı pətəkləridir. Deyir ki, zəngin təbiətimiz var. Arıçılıq üçün sərfəlidir. Bu sahə ilə məşğul olanlara dövlət qayğısı da yetərincədir. Arı xəstəliklərinin qarşısını almaq üçün vaxtlı-vaxtında dərmanlarla təmin olunuruq. Baytar həkimlər də mütəmadi olaraq gəlib arı və heyvandarlıq təsərrüfatlarına baxır, profilaktik tədbirlər aparırlar. Bax gördüyünüz tərəvəz sahələrini ailə üzvlərimlə birlikdə becərirəm. Övladlarımı da torpağa, zəhmətə bağlı ruhda tərbiyə etmişəm. Yetişdirdiyimiz məhsulların isə dadına, tamına söz ola bilməz. Kəndimizdə təsərrüfat suyu da boldur. Bu şəraitdə kim pis dolanırsa, günah onun özündədir. Torpağı iş yeri hesab edirəm. Məni dolandırır, güzəranımı da yaxşılaşdırır. Kifayət qədər torpaq sahəmiz var, suyu başının üstündə, əkinçilikdə işlədiləcək texnikalarımız da öz yerində. Məhsullarımızın alıcıları da heç zaman əskik olmayıb. Gəlirimiz artdıqca işə həvəsimiz də çoxalır.

Muxtar respublikamızda son illər həyata keçirilən möhtəşəm quruculuq işlərindən bu kənd də öz payını alıb. Belə ki, 2015-ci ildə Tividə yenidən qurulan məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, abadlaşan yollar, bir sözlə, insanların gün-güzəranını xeyli dəyişdirən belə diqqət və qayğı kənd adamlarını bu yurda daha sıx tellərlə bağlayıb.

Kənddə olduğumuz zaman Tivi kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Hüseynağa Həsənovla geniş quruculuq tədbirləri aparılmış obyektlərlə yaxından tanış olmaq imkanı əldə etdik. Kənd tam orta məktəbinin direktoru Məhəmməd Ağayev ilə həmsöhbət olduq. O dedi ki, əvvəllər köhnə, heç bir şəraiti olmayan binada fəaliyyət göstərən məktəb, bu gün yaraşıqlı binada elektron lövhələrlə, kompüterlərlə, müasir tədris vasitələri ilə təmin olunub. 216 şagird yerlik məktəb binasında 120 şagird təhsil alır. O bildirdi ki, son illər təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlar bir sıra uğurların əldə edilməsi ilə nəticələnib. Belə ki, bu tədris ilində məktəbin 11 nəfər məzunu olub. Onlardan 10-u ali və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərib. Məzunlardan 2-si 500-700 intervalında bal toplayıb.

...Ordubad rayonunun ucqar dağ kəndi olan Tivi bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Dövlətimizin bu yaşayış məntəqəsinə göstərdiyi qayğı kənd sakinlərinin rahat yaşamaq imkanlarını genişləndirib, onların qurub-yaratmaq əzmini yüksəldib. Buna görə də hər bir tivili çalışır ki, öz əməyi, fəaliyyəti ilə bu qayğıya əməli töhfəsini versin.

***Bəli, bu gün muxtar respublikamızın ən ucqar dağ kəndlərində yaradılmış infrastruktur kənd sakinlərinin sabaha olan inamlarını daha da artırıb. İndi hər kəs rahat şəkildə öz təsərrüfatı ilə məşğul olur, gün-güzəranını, dolanışığını təmin edir. Dövlət tərəfindən də bu sahəyə yardımlar edilir. Əvvəlki dövrlərdən fərqli olaraq indi istehsal olunan məhsulun da daimi bazarı var. Hər həftə Naxçıvan şəhərində, eyni zamanda rayon mərkəzlərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkaları kəndlinin üzünü güldürür. Elə tivililər də yaradılmış bu imkanlardan yararlanaraq muxtar respublikamızın iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.***

**Gülcamal TAHİROVA**

***Naxçıvan Muxtar Respublikasının ən böyük bölgəsi olan və əhalisinin 70 faizinin kəndlərdə yaşadığı Şərur rayonunda ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində görülən tədbirlər davam etdirilir. Dövlət proqramlarının uğurlu icrası və həyata keçirilən digər tədbirlər nəticəsində inkişaf təmin olunub, daxili bazarlarda məhsul bolluğu yaranıb.***

# Bu il də Şərurda məhsul bolluğu olacaq



Cari ilin ilk rübündə də məhsul istehsalçılarının müasir kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 396 min 700 manat dəyərində 26 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə güzəştli şərtlərlə Şərur rayonunda fəaliyyət göstərən sahibkarlara satılıb. Bütün bunlar aqrar sahənin inkişafına öz müsbət təsirini göstərməkdədir. Artıq əkinçilər ərsəyə gələn bitkiləri toplamağa başlayıblar.

Son illər Şərur rayonunda əkilən tərəvəz məhsulları sırasında soğan əsas yerlərdən birini tutur. Bu il Sərxanlı, Şəhriyar, Düdəngə, Cəlilkənd, Mahmudkənd yaşayış məntəqələrində daha çox soğan əkilib. Artıq sahələrdən bol məhsul toplanır.

Qeyd edək ki, keçən il rayonda soğan sahəsinin hər hektarından 130-140 sentner məhsul götürülüb. İndiyəqədərki nəticələr belə deməyə əsas verir ki, bu il məhsul daha çoxdur. Rayonda ümumi tutumu 3 min tondan artıq olan 12 soyuducu anbar fəaliyyət göstərir. Soyuducu anbarlar soğanın, həm də kartofun keyfiyyətli şəkildə saxlanılmasında əkinçilərə şərait yaradır. Torpaq mülkiyyətçiləri artıq qalan məhsulu bu anbarlarda saxlayır və ilboyu satışını təmin edirlər.

Əsasən, taxılçılıq rayonu kimi tanınmış Şərur rayonunda bu mövsümdə 4348 hektar buğda və arpa sahəsində biçin keçirilir. Sahələrdə becərmə tədbirləri aqrotexniki tələblərə uyğun ardıcıllıqla aparılıb, bunun nəticəsi olaraq zəmilərdə bol məhsul yetişdirilib.

Hasilə gələn məhsulu vaxtında və itkisiz toplamaq mühüm şərtdir. Bunun üçün rayonda əvvəlcədən lazımi hazırlıq işləri həyata keçirilib, taxılçılıqla məşğul olan fermerlərə, torpaq mülkiyyətçilərinə, mütəxəssislərə, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərə müvafiq tapşırıqlar verilib.

Biçində fiziki və hüquqi şəxslərdə olan 9 kombayn, kifayət qədər taxıldaşıyan avtomaşınlar və qoşqulu traktorlar, presvuran aqreqatlar da iştirak edir. Ehtiyat hissə və yanacaq tədarükü görülüb, yaradılmış səyyar təmir briqadası biçin kampaniyası dövrü ortaya çıxan hər hansı bir problemin təcili həll olunması üçün təlimatlandırılıb.

Biçin zamanı yanğın təhlükəsizliyinin təmin edilməsi, hazır məhsulun təmizlənməsi üçün xırman yerlərinin hazırlanması, sahə kənarlarındakı yolların hamarlanması və zəruri olan digər tədbirlər əvvəlcədən həyata keçirilib.

Bir neçə il bundan əvvələ qədər rayonda sarımsaq əkini ilə məşğul olanlar çox az idi. Bu tərəvəz məhsuluna olan ehtiyac isə idxal hesabına təmin olunurdu. Yerli istehsalın artırılması üçün bu sahədə də ardıcıl tədbirlər görülüb, sarımsaq əkini ilə məşğul olanların sayı ildən-ilə artır. 2017-ci ilin payızında bu ilin məhsulu üçün rayonun kəndlərində 30 hektardan artıq sahədə sarımsaq əkilib.

Kənd təsərrüfatı mütəxəssislərinin rəyinə görə, bu il rayonda 300-350 ton sarımsaq istehsalı gözlənilir. Bu məhsulun alıcısı çox olduğu üçün istehsalçılar onun istehlakında da heç bir çətinlik çəkmirlər.

İkinci çörək adlandırdığımız kartof gündəlik mətbəximizdə taxıldan sonra daha çox istifadə olunan kənd təsərrüfatı bitkisidir.

Ötən illərdə olduğu kimi, bu il də Şərur rayonunda bu bitkinin əkini üçün pay torpaqlarında 300 hektara qədər sahədə keyfiyyətli toxum əkilib. Şumdan əvvəl torpağın üzvi gübrələrlə zənginləşdirilməsi, şumun normal dərinlikdə aparılması, becərmə tədbirlərinin aqrotexniki tələblər səviyyəsində yerinə yetirilməsi nəticəsində fermerlər və torpaq mülkiyyətçiləri bol məhsul yetişdiriblər.

Onu da bildirək ki, artıq torpaq mülkiyyətçiləri kartof yığımını uğurla həyata keçirirlər. Hər hektardan orta hesabla 13-14 ton kartof yığılır ki, bu da məhsulun bol olacağına zəmanət verir.

**Ramiyyə ƏKBƏROVA**

# Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının konfransı keçirilib

*İyulun 7-də Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının konfransı keçirilib.*

Konfransın gündəliyinə Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının hesabatı, Rəyasət heyəti sədrinin, sədr müavininin, rəyasət heyəti üzvlərinin, İntizam Komissiyası sədrinin və üzvlərinin seçilməsi çıxarılıb.

Gündəlik təsdiq olunduqdan sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri Tural Hüseynov hesabat məruzəsi ilə çıxış edərək ötən 5 il ərzində kollegiyanın gördüyü işlər barədə məlumat verib.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Şəhər Hüquq Məsləhətxanasının müdiri Səbinə Hüseynova, vəkil Ələkbər Cəfərov çıxış ediblər.

Əvvəlcə 5 üzvdən ibarət Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Rəyasət heyəti seçilib.

Sonra Vəkillər Kollegiyasının rəyasət heyətinin üzvü Arif Ağayev vəkil Şükürov Kamil Qəzənfər oğlunun Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri seçilməsi təklifini irəli sürüb.

Təklif səsə qoyulub və Kamil Şükürov Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri seçilib.



Kamil Şükürov konfransda çıxış edərək göstərilən etimada görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib və qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası bundan sonra daha səmərəli işləyəcək.

Konfransda Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədr müavininin seçilməsi barədə rəyasət heyətinin üzvü Arif Ağayevin namizədliyi təklif edilib və səsə qoyulub. Beləliklə, Arif Ağayev kollegiyanın sədr müavini seçilib. Konfransda kollegiyanın İntizam Komissiyasının yeni tərkibi və sədri də seçilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və Hüquq-Mühafizə Orqanları ilə İş Şöbəsinin müdiri Cəlil Rüstəmov konfransda çıxış edərək deyib: Naxçıvan Muxtar Respublikasında insan hüquq və azadlıqlarının qorunması diqqət mərkəzində olub. Ölkəmizin Konstitusiyasında təsbit edilmiş hüquqi yardım almaq hüququnun daha səmərəli həyata keçirilməsini təmin etmək üçün muxtar respublikada vəkillik institutunun yaradılması zəruri idi. 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Fərmanın 4-cü bəndinə əsasən Azərbaycan Respublikası Vəkillər Kollegiyasına Naxçıvan Muxtar Respublikasında əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyinin və burada fəaliyyət göstərən vəkillərin sayının artırılması məqsədilə əlavə qəbul imtahanının Naxçıvanda keçirilməsini təşkil etmək tövsiyə edilib. Lakin Azərbaycan Respublikasında Vəkillər Kollegiyası nəinki bunu etmədi, hətta sonra Naxçıvanda Vəkillər Kollegiyasının yaradılmasının da hər vasitə ilə qarşısını almağa çalışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qətiyyətli mövqeyi ilə bütün manеələr dəf edildi. Muxtar respublika rəhbərinin qayğısı ilə Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası yaradıldı, dövlət dəstəyi ilə kollegiya üçün inzibati bina tikildi, maddi-texniki təminat həyata keçirildi, xüsusi geyim forması hazırlandı, kollegiyanın aparatının saxlanması üçün şərait yaradıldı.

Cəlil Rüstəmov vurğulayıb ki, kollegiyanın fəaliyyətində nöqsanlar da mövcud olub. Vətəndaşlara lazımi səviyyədə hüquqi xidmət göstərilmir. Yeni seçilən kollegiya sədri və rəyasət heyəti nöqsanları qısa müddətdə aradan qaldırmalı, vəkillik fəaliyyətinə inamı yüksəltməli, vəkillərin nüfuzunun artırılması, onların fəaliyyətində səmərəliliyin və keyfiyyətin yüksəldilməsi üçün səylə çalışmalıdırlar.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev çıxış edərək məhkəmə və hüquq-mühafizə orqanlarına göstərilən diqqət və qayğıdan danışıb. Qasım Əliyev qarşıya qoyulan vəzifələrin və verilən tapşırıqların icrasında Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlərinə uğurlar arzulayıb.

Bununla da, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının konfransı başa çatıb.

**"Şərq qapısı"**

# "TRT World" kanalı Naxçıvanın erməni işğalından azad edilmiş ərazilərindən reportaj yayımlayıb




***Türkiyənin ingilis dilində yayımlanan beynəlxalq xəbər kanalı – "TRT World" Naxçıvan Muxtar Respublikasının Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş ərazilərindən geniş reportaj yayıb.***

Reportajın əvvəlində Prezident İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə iyunun 26-da Bakıda keçirilən hərbi paradda səsləndirdiyi ***"Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır"*** fikrinə yer verilir.

1992-ci ildə Ermənistan silahlı birləşmələrinin işğal etdiyi Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin 26 ildən sonra Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən azad edilməsi barədə məlumat verilən reportajda jurnalistlərin hərbçilərimizdən aldıqları müsahibələr də əksini tapıb. Azərbaycan Ordusunun uzun müddətdir ki, Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı əraziləri geri qaytarmaq üçün xüsusi əməliyyat hazırladığı və həmin əməliyyatın uğurla həyata keçirildiyi bildirilir. Vurğulanır ki, bu əməliyyat nəticəsində, ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edilib. İndi həmin ərazilərə Azərbaycan əsgərləri nəzarət edirlər.

"TRT World"ün jurnalisti vurğulayır ki, azad edilən ərazilərdə azərbaycanlılara aid qəbirlərin mövcudluğu həmin ərazilərin məhz Azərbaycana məxsus olduğunu bir daha sübut edir.

Reportajda Naxçıvanda fəaliyyət göstərən orta məktəbin müəllimi Vüsalə Əliyeva ilə müsahibə də yer alıb. O, ermənilərin törətdikləri vəhşiliklər barədə məlumat verir. Bildirilir ki, ötən əsrin 90-cı illərində Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri aramsız düşmən hücumlarına məruz qalıb. Həmin vaxt işğal edilən Şərur rayonunun Günnüt kəndində yaşayış binaları, o cümlədən bir çox sosial obyektlər dağıdılıb, qaynar həyatın hökm sürdüyü qədim yaşayış yerimiz erməni vandalları tərəfindən xarabalığa çevrilib. Kəndin yaşayış evləri ilə birlikdə məktəbi, tibb məntəqəsi, kitabxanası, eləcə də qəbiristanlığı və məscidi dağıdılıb, kənd camaatı rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Şərur rayonundakı Mahmudkəndə köçməyə məcbur qalıb.







Reportajda Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yüksək hərbi hazırlıq vəziyyətinə gətirildiyi və ən müasir avadanlıqlardan istifadə edilməklə təlimlərin keçirildiyi diqqətə çatdırılır.

**AZƏRTAC**

# Dövlət proqramının icrası davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın təsdiq olunması və aid təşkilatlar tərəfindən bu proqramın icrası sağlamlıq imkanları məhdud uşaqların layiqli vətəndaş kimi formalaşması, cəmiyyətə inteqrasiya olunması üçün əlverişli şərait yaradır.***

Proqramın əsas məqsədi muxtar respublikamızda yaşayan sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması, inklüziv təhsilə keçid imkanlarının artırılması, distant təhsilin inkişaf etdirilməsi, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasında müasir üsulların tətbiq edilməsi, onların informasiya texnologiyalarından istifadə imkanlarının artırılması, eləcə də təlim-tərbiyəsilə bağlı müvafiq pedaqoji kadrların hazırlanmasıdır. Proqramın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2018-ci ilin ilk 6 ayında müvafiq tədbirlər həyata keçirib. Belə ki, muxtar respublika üzrə 18 yaşadək sağlamlıq imkanları məhdud olan 1925 uşaqdan 305 nəfərinin məktəbəqədəryaşlı olduğu müəyyənləşdirilib və onlar haqqında məlumat bazası yaradılıb.

Cari ilin 6 ayı ərzində komitə tərəfindən 430 nəfər sağlamlıq imkanları məhdud uşağın ailələri ilə əlaqə saxlanılıb, məlumat bazasının yaradılması məqsədilə söhbətlər aparılıb, uşaqların əlillik göstəricisi və səbəbləri araşdırılıb, onların potensialına uyğun olaraq məktəb, məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə müəssisələrinə göndərilmələri tövsiyə olunub.

Proqramın icrası ilə əlaqədar uşaq bağçalarına, ümumtəhsil müəssisələrinə, musiqi, idman, şahmat məktəblərinə və digər məktəbdənkənar müəssisələrə sağlamlıq imkanları məhdud uşaqların cəlb olunması diqqət mərkəzində saxlanılır. Belə ki, əlaqə yaradılan sağlamlıq imkanları məhdud uşaqlardan 5-i Naxçıvan Uşaq Bərpa Mərkəzinə, 3-ü Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə, 1-i Naxçıvan Şəhər Şahmat Mərkəzinə, 2-si Naxçıvan şəhər Uşaq-Gənclər İdman Məktəbinə, 2-si Şərur rayon Uşaq-Gənclər İdman Məktəbinə, 1-i Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 1-i 4, 1-i isə 5 nömrəli uşaq bağçasına cəlb olunub. Bacarıq və maraqları nəzərə alınaraq bu qəbildən olan 8 uşaq musiqi məktəblərinə və məktəbdənkənar müəssisələrin dərnəklərinə olmaqla, ümumilikdə, 24 nəfər məktəb, məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə müəssisələrinə yönləndirilib.

Ümumilikdə, cari ilin ötən dövrü ərzində muxtar respublikanın 74 məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində monitorinq keçirilib, xüsusi kateqoriyadan olan uşaqlara qarşı heç bir hüquq pozuntusu qeydə alınmayıb. Eyni zamanda Ordubad və Culfa şəhərlərindəki 3 nömrəli, Qıvraq qəsəbə tam orta məktəblərində sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması ilə bağlı sağlamlıq imkanları məhdud uşaqların valideynləri və məktəb psixoloqları ilə görüşlər keçirilib.

2018-ci ilin 10 mart tarixində Naxçıvan Muxtar Respublikasının Mədəniyyət, Təhsil nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə xüsusi kateqoriyadan olan uşaqlar üçün 10 mart – Milli Teatr Günü ilə əlaqədar Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Xalq artisti Şirzad Abutalıbovun səhnələşdirdiyi "Göyçək Fatma" tamaşasına baxmağa 128 nəfər sağlamlıq imkanları məhdud, hər iki valideyni vəfat etmiş və valideyn himayəsindən məhrum olan və aztəminatlı ailələrin uşaqları cəlb olunub.

Ümumilikdə, proqram qəbul olunduğu gündən 3015 sağlamlıq imkanları məhdud uşağın ailəsi ilə əlaqə saxlanılıb, uşaqların əlillik göstəricisi və səbəbləri araşdırılıb, potensialına uyğun onlardan 246 nəfəri məktəb, məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə müəssisələrinə cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Rezidenturaya qəbul imtahanının ikinci mərhələsi olub



*Dövlət İmtahan Mərkəzi iyulun 8-də 2018-2019-cu tədris ili üçün Azərbaycan Respublikasında baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının ikinci mərhələsini keçirib.*

İmtahan Bakı şəhərində iki, Naxçıvan şəhərində bir binada olmaqla, saat 11[00]-da başlanıb və 2 saat 30 dəqiqə davam edib. İmtahanda namizədlərə ixtisas fənləri üzrə 100 test tapşırığı təqdim olunub.

İxtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyənləşdirilmiş müsabiqə şərtini ödəyən – baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında topladığı balı 40-dan, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında isə 50-dən, ümumi balı 90-dan az olmayan namizədlər buraxılıblar.

Məlumat üçün bildirək ki, imtahanda iştirak edən 609 namizədin 408-i qız, 201-i oğlandır. Onlardan 529-u Azərbaycan, 80-i isə rus bölməsinin, 329-u cari ilin, 280-i isə əvvəlki illərin məzunlarıdır. İdarəetmə üçün 6 imtahan rəhbəri, 59 zal nəzarətçisi ayrılıb.

Naxçıvan şəhərində imtahan Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin binasında keçirilib. 20 namizədin iştirak etdiyi imtahana 1 imtahan rəhbəri cəlb edilib.

İmtahanın nəticələri bir neçə gün sonra Dövlət İmtahan Mərkəzinin rəsmi internet saytında *(www.dim.gov.az)* yerləşdiriləcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Şahmat üzrə rayon birinciliyi keçirilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Şərur Rayon İcra Hakimiyyəti ilə birgə rayon mərkəzindəki istirahət parkında şahmat üzrə rayon birinciliyi keçirib.***

Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi münasibətilə keçirilən tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov çıxış edərək bildirib ki, rayonda gənclərin hərtərəfli inkişafı üçün hər cür şərait yaradılıb. Onların bütün idman növlərinə cəlbi istiqamətində atılan addımlar sayəsində uğurlar da ilbəil çoxalır. Bölgədə mütəmadi olaraq şahmat üzrə yarışların təşkil edilməsi bu idman növünə gənclərin böyük maraq göstərməsinə səbəb olub. Təqdirəlayiq haldır ki, rayonun zəka sahibləri ölkə və beynəlxalq səviyyəli yarışlarda muxtar respublikamızı uğurla təmsil edirlər.



Muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov çıxışında deyib ki, son illərdə muxtar respublikanın şəhər və rayonlarında müasir tələblərə cavab verən şahmat məktəbləri tikilərək istifadəyə verilib, həmin məktəblərin maddi-texniki bazaları gücləndirilib. Bundan əlavə, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş bu məktəblərdə distant və interaktiv təhsilin təşkili üçün hər cür şərait yaradılıb. Mütəmadi olaraq şəhər və rayonlarda şahmat üzrə yarışların təşkil olunması da Naxçıvanda bu idman növünün kütləviliyinin artırılmasına xidmət edir.

Şərur Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin direktor müavini Musa Məmmədli tədbirin keçirilməsində əməyi keçən hər kəsə iştirakçılar adından minnətdarlıq edib.

Sonra yarışa start verilib. 20-yə yaxın gənc zəka sahibinin iştirakı ilə açıq havada təşkil edilən şahmat yarışı gərgin idman mübarizəsi şəraitində keçib. Şərur Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin yetirmələri İbrahim Orucov I, Turan Qasımov II, Yeganə Əhmədova III və Miryəhya Seyidov isə həvəsləndirici yerlərə layiq görülüblər. Yarışın sonunda qaliblər mükafatlandırılıblar.

**Nail ƏSGƏROV**

## Növbəti şənbə konserti olub



***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan mədəniyyət müəssisələrində, mədəni-maarif ocaqlarında isti yay günlərində əhalinin istirahətinin səmərəli təşkili, asudə vaxtın mənalı keçirilməsi üçün müxtəlif tədbirlər davam etdirilməkdədir.***

Vurğulanıb ki, "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" devizi altında keçirilən tədbirlər çərçivəsində Naxçıvan şəhərinin park və meydanlarında şənbə konsertləri də təşkil olunur. Ötən şənbə Naxçıvan şəhərinin Saat meydanında keçirilən növbəti konsertdə aparıcı bildirib ki, Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin "Şəlalə" instrumental ansamblı 15 ildən çoxdur, fəaliyyət göstərir. Bu musiqi kollektivi repertuar zənginliyinə diqqət yetirməklə ictimaiyyət qarşısında və hərbi hissələrdə, müxtəlif tarixi və əlamətdar günlərlə bağlı keçirilən tədbirlərdə konsert proqramları ilə çıxış edir.



Konsert ansamblın ifa etdiyi "Çahargah" kompozisiyası ilə başlayıb. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Arzu Fərzəliyev və Xatirə Səfərovanın ifa etdikləri "Yaşa məhəbbətim", "Güldür məni", "Eşqimi sönməyə qoymaram", "Xatırlayarsan" və başqa şən və lirik mahnılar iştirakçılarda xoş ovqat yaradıb.

Konsertdə ansamblın solistləri Qəmər Babayeva, Ədalət Hüseynov, Səyavuş Nəcəfov, Hüseyn Tağıyev Emin Sabitoğlu, İslam Rzayev, Ramiz Mirişli, Oqtay Kazımi, Elçin Vəzirov və başqalarının populyar mahnılarını ifa ediblər. Solistlərin ifa etdikləri "Kəpənək", "Bir xumar baxışla", "Həsrət nəğməsi", "Azərbaycanım" və başqa mahnılar alqışlarla qarşılanıb. Konsertdə ansamblın ifasında instrumental musiqilər də səslənib.

Bir saatdan artıq davam edən konsert Naxçıvan şəhər sakinləri və qonaqlar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, şənbə konsertləri yay fəslinin sonuna qədər davam edəcəkdir.

**Əli RZAYEV**

## *"Baba Nemətullah Naxçıvani: taleyi və sənəti"* kitabı nəşrə hazırlanır

Azərbaycanın təsəvvüf və təfsir alimləri arasında xüsusi yeri olan Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığına həsr edilən "Baba Nemətullah Naxçıvani: taleyi və sənəti" adlı kitab çap olunacaq.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutlarının və Əlyazmalar Fondunun elmi əməkdaşları uşaqlıq və gənclik illərini Naxçıvanda keçirən, İranda və Türkiyədə yaşayan, təsəvvüf və təfsir sahəsində əsərlərini də burada qələmə alan Baba Nemətullah Naxçıvaninin irsi ilə bağlı araşdırmalar aparıblar.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu tərəfindən "Taleyi və sənəti" layihəsi çərçivəsində hazırlanan kitabda Baba Nemətullah Naxçıvaninin yaradıcılığı ilə bağlı materiallar toplanılır. Nəşrdə elm xadimlərinin Naxçıvanda yetişən fəlsəfi məzmunlu məktəblərin nümayəndəsi olan Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığı ilə yanaşı, elmi fəaliyyəti, təsəvvüflə bağlı dərin düşüncələri, alimin qələmə aldığı fəlsəfi məzmunlu müxtəlif əsərlərinin tədqiqi ilə bağlı məqalələr də yer alacaq.

Qeyd edək ki, bölmədə sentyabr ayının 19-da "Baba Nemətullah Naxçıvani" mövzusunda elmi konfransın keçirilməsi də nəzərdə tutulub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 31 iyul 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 % güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 % həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 3844 kvadratmetr torpaq sahəsində yerləşən 3 girişli, 423,76 kvadratmetr ümumi, 423,76 kvadratmetr köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası (soyuducu anbar) | Şərur rayonu, Muğancıq-Mehrab kəndi | 156 000 | - | 7 800 |
| 2. | 3844,97 kvadratmetr torpaq sahəsində yerləşən 1611,6 kvadratmetr əsas sahədən ibarət qurğu (istixana kompleksi) | Şərur rayonu, Muğancıq-Mehrab kəndi | 68 000 | - | 3 400 |
| 3. | 4000,0 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 61,1 kvadratmetr ümumi, 11,9 kvadratmetr əsas, 49,2 kvadratmetr köməkçi sahədən ibarət qeyri-yaşayış binası (qazdoldurma məntəqəsi) | Şərur rayonu, Məmmədsabir kəndi | 15 000 | - | 750 |
| 4. | 431 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 144,06 kvadratmetr ümumi, 78,15 kvadratmetr yaşayış, 65,91 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi №16 | 51 500 | - | 2 575 |
| 5. | 5600 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 9 otaqlı, 130,4 kvadratmetr yaşayış, 216 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 52 000 | - | 2 600 |
| 6. | 603,0 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 100,0 kvadratmetr yaşayış, 23,28 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 14 000 | - | 700 |
| 7. | 5600 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 44 kvadratmetr yaşayış, 34,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 7 600 | 6 460 | 380 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 27 iyul 2018-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 31 iyul 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz. Əlaqə telefonu: 545-01-38***

***Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri muxtar respublikanın səhiyyə müəssisələrində yaradılmış imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.***

## Humanitar tibbi aksiyada 57 nəfər ambulator müayinə edilib

Ayda bir dəfə təşkil edilən növbəti aksiya Sədərək Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Aksiya üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələrin siyahısı hazırlanaraq onlar xəstəxanaya dəvət olunublar.

Qeyd edək ki, səhiyyə xidmətlərinin səviyyəsini müasir tələblərə çatdırmaq, keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə cari ildən etibarən Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Tibbi sığortanın təşkili ilə əlaqədar rayon mərkəzi xəstəxanası kompüterlərlə təmin edilərək səhiyyə informasiya sistemi yaradılıb, ehtiyac olan tibbi avadanlıqlarla təchiz edilib. Gələcəkdə icbari tibbi sığortanın digər rayonlarda da tətbiqi səhiyyəni yeni inkişaf mərhələsinə çıxaracaqdır.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadasının üzvləri bu səhiyyə müəssisəsində 57 nəfəri ambulator müayinələrdən keçirərək müvafiq tövsiyələr veriblər. Müayinələrin aparılmasında cərrah, oftalmoloq, uroloq, endokrinoloq, terapevt və nevropatoloqlar, LOR həkimləri iştirak ediblər.

Qaraağac kənd sakini Hüseynalı Cəfərovun iki övladı ambulator tibbi müayinələrə cəlb olunub. Valideyn övladlarının başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində müayinə olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib. Naxçıvan Muxtar Respublika Xəstəxanası belə aksiyaları digər rayonlarda da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 9 iyul 2018-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4348 | 1822 | 5814 | 31,9 |
| 2. | Babək rayonu | 10526 | 6491 | 19829 | 30,5 |
| 3. | Ordubad rayonu | 1678 | 1305 | 3582 | 27,4 |
| 4. | Culfa rayonu | 6116 | 3980 | 11791 | 29,6 |
| 5. | Kəngərli rayonu | 4706 | 2812 | 8002 | 28,5 |
| 6. | Şahbuz rayonu | 1615 | 62 | 169 | 27,3 |
| 7. | Sədərək rayonu | 2466 | 952 | 3068 | 32,2 |
| 8. | Naxçıvan şəhəri | 1028 | 462 | 1294 | 28,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **32483** | **17886** | **53549** | **29,9** |

***İtmişdir***

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə aid 0900059011 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 493